**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
YANINDA DÖVLƏT İDARƏCİLİK AKADEMİYASI**

*Əlyazma hüququnda*

**SƏNAN SƏMƏNDƏR OĞLU HƏSƏNOV**

# DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏRDƏ XƏZƏRİN STATUSU MƏSƏLƏSİ

**İxtisas: 59 01.01 –"Beynəlxalq münasibətlər"**

**Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq
üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2013**

İş AMEA-nın Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun "Politologiya və Siyasi sosiologiya" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** tarix elmləri doktoru, professor **Ə.M.Həsənov**

**Rəsmi opponentlər:** tarix elmləri doktoru, professor, **M.C.Qasımlı**

siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent **N. K .Rəhimova**

**Aparıcı təşkilat: Azərbaycan Dövlət İqtisad Universitetinin "Beynəlxalq münasibətlər" kafedrası**

Müdafiə "_29__" _10_ 2013 -ci ildə saat "_____" da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəcilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 02. 101 Dissertasiya Şurasının iclasında keciriləcəkdir.

**Ünvan:** AZ.1001. Bakı şəhəri, Lermontov kücəsi, 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəcilik Akademiyasının Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" _____________ 2013-ci ildə göndərilmişdir.

**FD.02. 101 Dissertasiya Şurasının elmi katibi,**
**fəlsəfə üzrə fəlsəfə doktoru, dosent: S.İ.Məmmədova**

# İŞIN ÜMUMU SƏCİYYƏSİ

**Tədqiqat mövzusunun aktuallığı:** XX əsrin 80-ci illərinin sonunda dünyada baş vermiş proseslər SSRİ-ni və sosializm sistemini süquta uğratdı. SSRİ-nin çökməsi Avrasiya reğionunda yeni etnik, siyasi və ərazi münaqişələrinin əsasını qoydu. Xəzər bölgəsi yeni ərazi və siyasi iddiaların cərəyan etdiyi məkanlardan birinə cevrildi. Müasir beynəlxalq münasibətlərin aktual məsələlərindən birinə çevrilən Xəzər və onun ətrafında cərəyan edən iqtisadi-siyasi maraqlar sisteminin öyrənilməsi xüsusi elmi və praktik əhəmiyyət kəsb etməyə başladı. XX əsrin 90-cı illərində bu prosesin tərkib hissəsi kimi Xəzərətrafı regionda müstəqil dövlətlərin yaranması ilə həmin dövlətlərin su sərhədlərinin müəyyən edilməsi, onun siyasi və hüquqi statusunun dəqiqləşdirilməsi zərurətini meydana çıxardı. Belə siyasi vəziyyət Azərbaycan Respublikasının Xəzərin ədalətli, tarixi təcübələrə və hüquq normalarına əsaslanan istifadə rejiminin tətbiqinin əsaslandırılmasındakı siyasi-diplomatik fəaliyyətini fundamental elmi araşdırma mövzusuna cevirdi.

Xəzərin statusu probleminin meydana cıxmasını və region ölkələrinin maraqlarını prosesin ilk vaxtlarında Ulu Öndər Heydər Əliyev şərh edərək demişdir: “1994-cü ildə Azərbaycanın böyük neft müqaviləsi imzalaması region ölkələrini, o cümlədən bir cox ölkələri narahat etdi. Onlar bu məsələnin qarşısını almaq ücün “status” məsələsini ortaya atdılar. Biz statusun müəyənləşməsinin əleyhinə olmamışıq. Sovet dövründə bölgü praktikası mövcuddur.Mən belə hesab edirəm ki, Xəzərin statusu müəyyən olunana qədər bu prinsir davam etməlidir. Azərbaycan da bu prinsipi əsas götürərək öz sektorunda neft –qaz hasilatı ilə məşğuldur. Burada fikirlər müxtəlifdir. Azərbaycan və Qazaxıstan sektorial bölgü tərəfdarı, Rusiya, İran və Türkmənistan isə kondominium tərəfdarlərıdır. Ancaq bu prinsip Xəzərdə hec vaxt olmayıb. Sektorial bölgü isə 1970-ciildən mövcuddur” [1].

Bu baxımdan dövlətlərarası münasibətlərdə müzakirə mövzusuna cevrilmiş Xəzərin statusu probleminin aktuallığının səbəblərini aşağıdakı müddəalarla ifadə etmək olar:

-Yeni siyasi şəraitdə Xəzər bölgəsinin əhəmiyyətinin artması; Onun tarixində baş verən siyasi proseslərin araşdırılmasına yaranmış zərurət.

---

[1] Əliyev H.Müstəqilliyimiz əbədidir. 46 cilddə. 11-ci kitab. Bakı, Azərnəşr, 2003. s.12-13.

- Dünya ölkələrinin Xəzər bölgəsində transmilli layihələrə küllü miqdarda sərmayələr qoymasının mahiyyəti, geosiyasi kökləri və Azərbaycanın bu prosesdə milli maraqlarının təmin olunmasının araşdırılması;

-Xəzərin statusu probleminin yaranma reallıqları, geosiyasi kökləri və regionda maraqları olan dövlətlərin siyasətinin məqsəd və istiqamətlərinin araşdırılmasının Azərbaycan siyasi elmində əhəmiyyət kəsb etməsi;

- Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Xəzərin statusuna dair Azərbaycan diplomatiyasının mütəşəkkil, əsaslandırılmış fəaliyyətinin dövlətlərarası münasibətlərin, bölgədəki sülhün və əminamanlığın qorunmasının aktoru kimi cıxış etməsi;

Odur ki, məsələ barədə Xəzəryanı dövlətlərin mövqelərini araşdırmaq Xəzər tarixində baş vermiş hadisələrin geosiyasi köklərinin elmi nəzəri cəhətdən kompleks öyrənilməsini, Xəzərə münasibətin gerçək mahiyyətini, eləcə də həm Xəzəryanı dövlətlərin regionda nümayiş etdirdiyi məqsədləri düzgün qiymətləndirməyə imkan verir. Bu problemin Azərbaycanda siyasi elmin tədqiqat obyekti kimi dissertasiya səviyyəsində araşdırılması xüsusi aktuallıq kəsb edir.

Xəzərdən ədalətli istifadənin ölkəmiz üçün əhəmiyyətini şərh edərkən Ulu Öndər Heydər Əliyev demişdir: “Azərbaycanın Xəzər bölgəsində müstəqil şəkildə suveren hüquqlarından istifadə edərək öz sərvətlərinə sahib cıxması və Xəzərin ona aid olan hissəsində böyük layihələr həyata kecirməsi Azərbaycanın bu günü , həm də gələcəyi üçün olduqca gərəklidir.” [1]

Azərbaycan Respublikasının Prezident İlham Əliyev isə Xəzər regionundakı geosiyasi vəziyyətin istiqamətlərini şərh edərkən demişdir.” Dünyanın indiki siyasi durumunda Xəzər və onun enerji ehtiyyatları nəinki Azərbaycan və region üçün, bütün dünya üçün müstəsna əhəmiyyət kəsb edir.[2]

- Aparılan təhlil həm də göstərir ki, «Əsrin müqaviləsi»nin imzalanmasından dərhal sonra daha kəskin şəkildə dövlətlərarası münasibətlərdə cərəyan edən Xəzərin statusuna münasibətdə sahilyanı dövlətlərin mövqeyi təkamül yolu ilə inkişaf etmişdir. Bu prosesin

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir. 46 cilddə. 2-ci kitab. Bakı, Azərnəşr, 1997,s.254

[2] Алиев И.Каспийская нефтъ и Азербайджана. М.,Известия, 2003. с.216

başlanğıc mərhələsini və gedişatın elmi-nəzəri cəhətdən öyrənilməsi aktualdır.

-Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Xəzəryanı ölkələr arasında münasibətlər inikşaf etdi, ikitərəfli və coxtərəfli əlaqələrdə dinamizm artdı, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri çoxaldı. Belə bir vəziyyət Xəzərin statusu məsələsində tərəflərin mövqeyindəki ortaq məqamların üzə çıxarılmasına təkan vermişdır. Həmin siyasi kurs Prezident İlham Əliyev tərəfindən sistemli və milli maraqlarımızı ifadə edən qərarların qəbulu ilə aparılmaqdadır.

**Problemin işlənmə dərəcəsi.** Dissertasiya işi yazılarkən mövzu ilə bağlı Azərbaycan, ABŞ, Rusiya, İran və başqa ölkələrdə çap edilmiş kitab və məqalələr tədqiqat işinə cəlb edilmiş, öyrənilmiş və təhlil olunmuşdur.

Bu baxımdan Ulu Öndər Heydər Əliyevin Xəzərin statusu problеminin həlli uğrunda Azərbaycan Respublikasının rəsmi mövqeyini və dövlət başçısının fəaliyyətinin əsas məqamlarını 1993-2003 cü illərdə əks etdirən məruzə, nitq və cıxışlarının toplandığı coxcildli kitablar dövlətimizin xarici siyasət məsələlərini, o cümlədən onun tərkib hissəsi kimi Xəzərin statusunun tənzimlənməsindəki mövcud siyasi kursu öyrənməkdə cox əhəmiyyətli mənbə rolunu oynayır və Xəzərin statusunun yaranma səbəbləri, gedişi və müxtəlif dövlətlərin tutduğu mövqeyin təhlili üçün xüsusi əhəmiyyət kəsb edir. [1]

Prezident İlham Əliyevin əsərlərində Azərbaycanın müasir dövrdə Qafqaz regionunda mövcud inkişafını və region dövlətləri içərisində yeritdiyi siyasət təhlil edilmiş, meydana çıxan çətinliklər onların həlli yolları, inkişaf perspektivləri eləcə də Xəzər neftinin regionda və dünyadakı geosiyasi proseslərdəki rolu geniş araşdırılmışdır [2].

R.Mehdiyevin bir sıra əsərləri Azərbaycanın müasir inkişaf strategiyasının vacib məqamlarının və Xəzərə dair konsepsiyanın öyrənilməsi üçün fundamental mənbədir[3] .

---

[1] Əliyev H. Müstəqilliyimiz əbədidir. 45 cilddə. V,VI kitablar. Bakı, Azərnəşr, 1998.

[2] Əliyev İ. Böyük siyasətdə reallıqlar və perspektivlər. Bakı, Qanun; 1999. Yenə onun. Azərbaycanıma İnanıram. Bakı, Azərnəşr; 2007; Yenə onun. Azərbaycanın Xəzər nefti. Bakı, Azərnəşr, 2003, və s.

[3] Mehtiyev R.Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, Azərnəşr, 2005, Yenə onun. İnkişafa doğru. Bakı, Oskar, 2008. və s.

Ə.Həsənovun coxsaylı elmi əsərlərində ümumən Azərbaycanın xarici siyasət məsələləri ilə yanaşı Xəzərin hüquqi statusu haqqında aparılan müzakirələri və Azərbaycanın ədalətli mövqeyini əhatəli şəkildə araşdırılmışdır. Onun geniş həcmli məqaləsində Xəzərin hüquqi statusu xüsusi olaraq təqdid edilir. Müəllif beş Xəzərətrafı dövlətin bu məsələyə yanaşmasının metodoloji, geosiyasi, geoiqtisadi və hüquqi nəticələrini, mövcud hüquqi yanaşmaların beynəlxalq və regional aspektlərinin dərin politoloji təhlilini verir[1] .

Azərbaycan alimlərinin Xəzərin tarixinə həsr olunmuş əsərlərinin təhlil edilməsi problemin öyrənilmə səviyyəsini müəyyənləşdirməyə imkan verir. F.Həsənovun ,S.Vəliyevin , T.Məmmədovun əsərlərində Xəzərin tarixi, onun əmələ gəlməsində cərəyan edən proseslər, bu hövzənin ətrafında uzun tarixi dövrdə xalqlar arasında gedən ictimai-siyasi mübarizələrin təhlili məsələləri araşdırılmışdır. Azərbaycan neftinin tarixi və beynəlxalq müqavilələrin siyasi təhlili baxımından E.Nəsirovun və E.Abdullayevin əsərləri diqqəti cəlb edir. [2]. Azərbaycan neftinin inkişafında xarici kapitalın rolu kimi əhəmiyyətli məsələlər X. Yusifzadənin, N.Əliyevin əsərlərində təhlil edilir [3].

---

[1] Həsənov Ə. Azərbaycanın xarici siyasəti : Avropa dövlətləri və ABŞ. 1991-1996. Bakı, Azərnəşr; 1998, Yenə onun. Azərbaycan-ABŞ: Anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru. Bakı, BDU nəşriyyatı; 1997, Yenə onun Azərbaycanın Avropa dövlətləri və ABŞ ilə əlaqələri. Bakı, Azərnəşr; 2000. Yenə onun. Müasir beynəlxalq münasibətlər sistemi və Azərbaycanın xarici siyasəti. Bakı, Azərnəşr, 2005. Yenə onun. Geosiyasət. Bakı, Aypara, 2010., Yenə onun. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik konsepsiyası. Bakı, Lettepres, 2011.,Yenə onun (A.Abbasbəyli ilə birlikdə). Азербайджан в систем международных й регионалных организации. Баку, АДН, 1999. Yenə onun. Xəzərin hüquqi statusu və Azərbaycanın geoiqtisadi maraqları.//Fəlsəfə və Sosial Siyasi elmlər"jurnalı. Bakı, 2011,№1.
[2] Həsənov F. Xəzərin tarixi və onun problemləri.// Elm və Həyat" jurnalı, Bakı, 1993, №5-6. Vəliyev S. Xəzər haqqında deyirlər. // Elm və Həyat" jurnalı, Bakı, 1997, №3. Məmmədov T. Xəzər necə əmələ gəlmişdir. // Elm və Həyat" jurnalı, Bakı, 1972, №9. Nəsirov E. Azərbaycan nefti və beynəlxalq müqavilələr. Bakı, 1999, Abdullayev E. Azərbaycan neft sənayesinin inkişafında xarici kapital. // Qanun " jurnalı; 1999, №2.
[3] Yusifzade Kh. The Development of the Oil and Gaz İndustry. Az. İnt. Sammer. SOKAR. №7, Baku, 1996. Əliyev N. ARDNŞ-in bəyənatı.// Azərbaycan" qəzeti 12 sentyabr 1997. №168.

M. Əhmədovun əsəri problemin tədqiqində əhəmiyyət kəsb edir.[1]

R.Məmmədovun əsərlərində Xəzərin statusu probleminin yaranması səbəbləri, beynəlxalq praktikanın Xəzərə dair müddəaları geniş araşdırılmışdır. Tədqiqatcı problemin hüquqi tərəfinin tədqiqində əsaslı qənaətlərə gəlmişdir.[2] Onun əsərləri problemin öyrənilməsində mühüm mənbədir.

A.Abbasbəylinin və E.Abbasbəylinin monoqrafiyasında həyata keçirilən neft diplomatiyası və Xəzərin statusunda Azərbaycanın mövqeyini toxunulmuşdur.[3]

«Strateq» adlı kitabın VI fəslində və VIII fəsillərində problemə dair aparılan danışıqlar öz əksini tapmışdır. Bu sahədə Ümummilli lider Heydər Əliyevin və Azərbaycan dövlətinin başçısı İlham Əliyevin ardıcıl mövqeyi, mötəbər qurumlarda nitqləri işıqlandırılmışdır[4]

Azərbaycan alimlərindən P.Q.Darabadinin, N.Ə.Əliyevin və H.Məmmədovun kitabı Xəzər haqqında regionda gedən geosiyasi mübarizənin forma, metod və məqsədlərini başa düşməkdə əhəmiyyətlidir.[5] Problem araşdırılarkən ilk növbədə İran müəlliflərinin də əsərləri ilk dəfə olaraq elmi dövriyyəyə gətirilmiş, ilk növbədə xəzərşünas tədqiqatçı X.K.Ərdəbilinin məqalələrinə diqqət yetirilmiş, M.R.Dəbirinin məqaləsində Xəzər regionunun tarixinə nəzər salınmış,

---

[1] Əhmədov M. Azərbaycan yeni neft erası və beynəlxalq siyasət. Bakı, Elm; 1997.

[2] Məmmədov R. Xəzərin statusu //Dirçəliş XXI əsr" jurnalı. Bakı, 1998. №2., Yenə onun. Postsovet dövründə Xəzərin hüquqi rejiminin beynəlxalq hüquqi aspektləri. //beynəlxalq hüquq"jurnalı B. 1998. №1, Yenə onun. Международо-прававвой статус Каспийского моря как пограничного озера. Баку: Тящсил, 2000,

[3] Аббасбейли А. Аббасбейли Е. Гейдар Алиев и мировая политика. Баку, Азернещр, 1997.

[4] Strateq. (redaktor F. Ağamalı). Bakı, Oskar 2003, səh. 93-98. IV kitab., Azərbaycanın bu günü və gələcəyi. (redaktor F. Ağamalı). Bakı, Oskar 2003, X kitab., Fenomen. (redaktor F. Ağamalı). Bakı, Oskar 2003. XII kitab.

[5] Дарабади П., Алиев Н. Геополитическое соперничество в Каспийском регионе и Азербайджан ( с древнейших веков до конца XX века) Баку-БВВМУ, 2001., Məmmədov H. Azərbaycan beynəlxalq münasibətlərin aktoru kimi. Bakı. Elm, 2007

tarixi təcrübədə Xəzərdən istifadəyə toxunulmuş, müasir vəziyyətə münasibət bildirilmişdir. [1]

Rusiyalı alim K.Hacıyevin müasir geopolitikaya həsr edilmiş kitabda cənubi Qafqazın,o cümlədən Xəzər regionunun geosiyasi yeri və rolu araşdırılmış, A.Levçenkonun məqaləsi isə Xəzərin bölünməsi uğrunda dövlətlərin apardıqları mübarizələrə həsr olunmuşdur.[2]

Rusiya alimləri N.Lebedevin, L.Alekseyevin əsərlərində SSRİ ilə İran arasında Xəzər haqqında gedən mübarizələrə və imzalanmış hüquqi sənədlərə toxunulmuşdur. [3]

Tədqiq etdiyimiz problemə dair dövrü mətbüatda da zəngin materiallar toplanmışdır. Dissertasiya işi yazılarkən Rusiya, ABŞ, İran, Türkmənistan, Qazaxıstan, o cümlədən Almaniya, Fransa və İngiltərədə nəşr olunmuş jurnal və qəzetlərin materiallarına müraciət edilmişdir.

Həmin əsərlərdən məlum olur ki,Xəzərin istifadə rejimində, onun bölünməsində və tarixən mövcud olmuş sektorial bölgü praktikasında saxtalaşdırılmağa cəhd edilir. Buna görə də hadisələrin cərəyan etmə fonunun, məsələ barədə digər olkələrin tədqiqatcılarının fikir və mülahizələrinin təhlili problemin öyrənilmə dərəcəsini artırır.

Beləliklə, problemə dair elmi ədəbiyyatların təhlili göstərir ki, təqdim edilən dissertasiya bu sahədəki boşluğun aradan qaldırılmasında müəyyən addım kimi qiymətləndirilə bilər.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Azərbaycanın xarici siyasətində və region ölkələri ilə münasibətlərində Xəzərin statusuna dair aparılan siyasət, predmeti isə Xəzərin statusunun həlli istiqamətində Azərbaycan diplomatiyasının xüsusiyyətləri və mexanizmləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi Xəzərin statusu probleminin müasir dövrdə meydana cıxması, bununla bağlı dövlətlərarası müzakirələrin başlanması, davam etməsi, onun həllinə dair Azərbaycanın, digər Xəzəryanı dövlətlərin ortaya qoyduqları mövqenin siyasi təhlilinə nail olmaqdır.

---

[1] Ардебили Х.К. Правовой режим Каспийского моря, развитие ресурсов и енергетическох магистралей. Аму-Даря, мая 1996. Dəbiri M.R. İranın Xəzər regionunda əməkdaşlığına dair. Tehran, 2002.

[2] Гаджиев К. Геополитика. Москва, 1997..Левченко А. Каспийское море процветания или яблоко раздора.// Возрождения ХХ в. Баку, 1999, №1.

[3] Lebedev N.İ. SSRİ- dünya siyasətində (1917-1980). Bakı,1988., Алексеев Л. Советский Союэ и Иран. М. 1963.

Dissertasiya çərçivəsində bu məqsədə çatmaqdan ötrü konkret olaraq aşağıdakı tədqiqat vəzifələrinin yerinə yetirilməsinə cəhd edilmişdir.

- Xəzərin statusu probleminin geosiyasi problem kimi şərtləndirən amilləri araşdırmaq və onu inkişaf dinamikası ilə izləyib müqayisəli təhlil etmək.

- problemə dair tədqiqatçıların əsərlərini öyrənmək, Azərbaycan və digər dövlətlərin irəli sürdüyü təkliflərinin mahiyyətini, məqsədlərini araşdırmaq, baş vermiş dəyişikliklərin regionun siyasi həyatına təsirini və nəticələrini şərh etmək;

- Ulu Öndər Heydər Əliyevin ölkə rəhbərliyinə yenidən qayıtmasından sonra Xəzəryanı dövlətlərlə, eləcə də Qərb ölkələri ilə münasibətlərdəki baş verən keyfiyyət dəyişikliklərinin, ölkənin inkişafı üçün həyata keçirilən neft diplomatiyasının verdiyi müsbət nəticələrin, bu əsasda aparılan ikitərəfli və çoxtərəfli danışıqların Xəzərin statusunun nizama salınması prosesinə təsirini tədqiq etmək;

- Xəzərin statusunun həllinə dair danışıqların məzmununu, problemin həllinə dair tərəflərin mövqelərini və təkliflərin mahiyyətini təhlil etmək; problemin son illərdə nizamlanması istiqamətində yaranmış vəziyyəti Azərbaycan diplomatiyasının xüsusi bir nailiyyəti kimi təhlil etmək və onun geosiyasi mahiyyətini açmaq;

- problemin həllinə maneçilik törədən ölkələrin fəaliyyətindəki mənfi halların aradan qaldırılması və konstruktiv mövqeyin fəallaşdırılması üçün konkret tövsiyyələr irəli sürmək;

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Prezident İlham Əliyevin Azərbaycan dövlətinin Xəzərin statusuna dair siyasi kursu və bununla əlaqədar irəli sürülmüş konseptual müddəalar, habelə tədqiqatçıların mövzu ilə bağlı fundamental əsərləri işin nəzəri bazasını, müasir politoloji tədqiqatlarda qəbul olunmuş analiz və sintez, ümumiləşdirmə, induksiya və deduksiya, tarixilik, müqayisəli və sistemli siyasi təhlil metodları isə metodoloji əsasını təşkil etmişdir.

**Tədqiqatın mənbəşünaslıq bazası.** Dissertasiya işi bir sıra sənədli mənbələr əsasında yazılmışdır. Bu mənbələrə ilk növbədə Azərbaycan Respublikasının rəsmi sənədləri sırasına ölkə başçısının fərman və sərəncamları, Xarici İşlər Nazirliyinin cari arxivinin, Milli Arxivlər İdarəsinin materialları, Azərbaycan Dövlət Neft Şirkətinin cari arxivlərində saxlanılan sənədlər və s. daxildir.

Bundan başqa tədqiqat zamanı Xəzəryanı dövlətlərin rəsmi nümayəndələrinin, dövlət və hökumət başçılarının nitqləri və digər sənədlərindən də istifadə edilmişdir.

Tədqiqatın bu istiqamətdə aparılması Xəzərin statusu ilə bağlı hadisələrin ardıcıllıqla izlənilməsinə və qəbul edilmiş qərarlara, problemin həllinə dair faktlar və materialların toplanmasına kömək etmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Azərbaycanın Respublikasının Xəzərin statusuna dair ortaya qoyduğu konsepsiyanın və həmin problemin milli maraqlarımıza üyğun həllinə yönələn siyasətinin kompleks şəkildə belə qoyuluşla araşdırılmasından, ibarətdir. Daha konkret olaraq dissertasiyanın elmi yeniliyi aşağıdakı müddüələrda əks olunur:

- problem Azərbaycan siyasi elmində ilk dəfə olaraq kompleks şəkildə elmi tədqiqat işi kimi araşdırılmışdır;
- mövzu üzrə faktların toplanması, sistemləşdirilməsi və təhlili əsasında Xəzərin statusunin geosiyasi kökləri və nizamlanması istiqamətində Azərbaycanın siyasi kursu və rəsmi mövqeyinin real vəziyyəti öyrənilmişdir;
- Azərbaycan, Rusiya, İran, Türkmənistan, Qazaxıstan, ABŞ və b. ölkələrin mövqeyini əks etdirən sənədlərin, dövrü mətbuatın öyrənilməsi və istifadə edilməsi nəticəsində ilk dəfə elmi dövriyyəyə xeyli yeni fakt və materiallar cəlb edilmişdir.
- region ölkələrinin politoloqlarının və tədqiqatçılarının Xəzərin statusuna dair konsepsiyaları və mülahizələri öyrənilmiş, müqayisəli təhlil edilmiş və sistemləşdirilmişdir;
- problemin ilkin mərhələsində və sonrakı dövrlərdə ölkələrin yeritdiyi siyasət araşdırılmaqla yanaşı bu siyasətdəki dəyişikliklər mərhələlərlə təhlil edilmiş, danışıqlar prosesinin mahiyyəti öyrənilmişdir;
- Xəzərin statusunun nizamlanmasında Azərbaycan diplomatiyasının rolu ümumiləşdirilmişdir;

**Dissertasiyanın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya işinin əsas müddəaları və nəticələrindən problemlə bağlı gələcək tədqiqatların aparılmasında, elmi konfransların kecirilməsində və tədqiqat işlərinin yazılmasında, müvafiq sahə üzrə dərslik, dərs vəsaiti və digər ümumiləşdirilmiş əsərlərin hazırlanmasında., Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi sistemində Xəzərin statusunun həlli istiqamətində aparılan danışıqlarda, Azərbaycan Respublikası ilə Xəzəryanı ölkələr arasında çoxtərəfli münasibətlərin daha da inkişaf etdirilməsində istifadə edilə bilər.

**İşin aprobasiyası.** Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunun «Politologiya və siyasi sosiologiya» şöbəsinin iclasında müzakirə edilmiş və müdafiəyə məsləhət görülmüşdür. İşin əsas məzmunu iddiacının Azərbaycanda və xaricdə nəşr edilmiş elmi əsərlərində elmi-nəzəri, elmi-praktik konfranslarda etdiyi cıxışlarında öz əksini tapmışdır.

**Dissertasiya işinin strukturu.** Dissertasiya işi giriş, üç fəsil, altı paraqraf, nəticə, ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**"Girişdə"** mövzunun aktuallığı əsaslandırılmış, problemin işlənmə dərəcəsi müəyyənləşdirilmiş, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, metodoloji əsası, nəzəri və praktik əhəmiyyəti göstərilmiş, işin aprobasiyası və strukturu haqqında məlumat verilmişdir.

**"Xəzərin statusu məsələsinin meydana cıxması və müasir problemlər: siyasi təhlil"** sərlövhəli birinci fəsil üç yarımfəsildən ibarətdir. **"Xəzər neftinin istismarına dair beynəlxalq müqavilələrin bağlanması və status məsələsinin meydana cıxması"** adlı birinci yarımfəsildə Xəzərin tarixinə nəzər salınmış, müxtəlif dövrlərdə onun həyatında baş vermiş ictimai-siyasi hadisələrin müasir siyasi proseslərlə müqayisəli təhlili verilmişdir

Yarımfəsildə göstərilir ki, XVIII əsrdən etibarən mühüm iqtisadi-siyasi əhəmiyyətə və təbii sərvətə malik olan, Xəzər dənizi Rusiyanın diqqət mərkəzinə cevrilmişdir. XIX əsrin əvvəllərində- Azərbaycan işğalından sonra bu hövzədən Rusiya və İran sərbəst şəkildə istifadə etmişlər. XIX əsrin sonlarından başlayaraq Xəzərin geoloji tarixi, neft qaz yataqları, bioloji şəraitinə dair elmi tədqiqatlar bilavasitə azərbaycanlı mütəxəsisslərinin mühüm xidmətləri sahəsində aşkar olunmuşdur. Bu dövrdən etibarən Xəzərdə Rusiya və İranın nüfuz bölgüsünə əsaslanan mübarizəsi daha da güclənir.

Nəhayət, 1993-cü il oktyabrın 3-də prezident seçkilərindən sonra hakimiyyətə gəlmiş Heydər Əliyev 1994-cü il fevralın 4-də «Azərbaycan Respublikasında dəniz neft yataqlarının işlənilməsinin sürətləndirilməsi haqqında» sərəncam verdi.

Müqavilənin imzalanma mərasimində onun iqtisadi-siyasi əhəmiyyətini qiymətləndirərək Ulu Öndər Heydər Əliyev demişdir: "Biz

bu müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, xalqımızın öz sərvətlərinə özünün sahib olduğunu dünyada bir daha nümayiş etdiririk. Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünya olkələri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması ücün əsas yaradırıq. Azərbaycan Respublikasının müstəqil demokratik, hüquqi dövlət olduğunu nümayiş etdiririk".[1]

Neft strategiyasının ilk uğurlarından sonra Xəzərin statusu problemi sahilyanı dövlətlər arasında ciddi müzakirə mövzusuna cevrildi. **"Sahilyanı ölkələrin mövqeyi və Xəzərin statusu ətrafında mübarizənin kəskinləşməsi"** adlı ikinci yarımfəsildə göstərilir ki, hətta Sovet dövründə İranla Rusiya arasında bağlanmış 10-dək müqavilə praktikası ilə tanışlıq göstərir ki, həmin sənədlərin müəlliflərinin Xəzəri dəniz, yoxsa göl hesab etmələrini bağlanmış muqavilələr əsasında söyləmək belə çətindir. Doğrudur, SSRİ-nin süqutunadək Xəzərdən istifadəni Rusiya-İran və Sovet-İran müqavilələri tənzimləyirdi. Lakin, həmin sənədlərdə də hüquqi baxımdan «status» anlayışı olmamışdır[2]. Bu iki dövlət əsas diqqəti, su sərhəddini Astara-Həsənqulu xətti ilə müəyyənləşdirərək (1881) tranzit məsələlərinə, iqtisadi-texniki əməkdaşlığa və istifadə rejiminə yönəldirdi.

XX əsrin 90-cı illərində .Xəzərətrafı regionda müstəqil dövlətlərin yaranması, həmin dövlətlərin su sərhədlərinin müəyyən edilməsini, onun siyasi və hüquqi statusunun dəqiqləşdirilməsi zərurətini meydana çıxardı. Məsələ barədə ziddiyyətlərin kəskinləşməsi siyasi mübarizəni və milli maraqları dövlətlərarasında gərgin müzakirə obyektinə cevirdi. Bu zaman

Azərbaycanın öz su sektorundan sərbəst istifadəyə olan haqqının əsaslandırılması və Xəzər dənizinin bütün yataqlarının Azərbaycan alimləri, geoloqları, mütəxəssisləri tərəfindən acılmasınının sübut olunması bu məsələdə gərgin siyasi vəziyyət yaratdı.

Bu istiqamətdə danışıqların şərti olaraq dörd mərhələdən keçməsi qənaətinə gəlirik. Birinci mərhələ 1991-1994-cü illəri, ikinci mərhələ 1994-1996-cu illəri, üçüncü mərhələ 1997-2000- ci illər və nəhayət

---

[1] Azərbaycan neftinin tarixində mühüm dönüş. //Azərbaycan" qəzeti, 21-22 sentyabr, 1994, № 17.

[2] Xəzərin enerji ehtiyatları və ABŞ-ın mövqeyi. //Azərbaycan" qəzeti, 15 fevral, 1998, № 41.

2000-ci ildən sonrakı dövrü əhatə edir. Bu prosesin ilk mərhələsində beş sahilyanı ölkə hər biri öz mövqeyini kəskin şəkldə qoymuş və hadisələrin inkişafı get-gedə gərginləşmişdir.

Beləliklə, yarımfəsildən aşağıdakı nəticələri cıxarmaq olar:

-Xəzər tarix boyu sərvətləri, yerləşdiyi əlverişli coğrafi siyasi mövqeyi ilə digər dövlətlərin diqqət mərkəzində olmuşdur;

-XIX əsrin əvvəllərindən Azərbaycanı işğal etdikdən sonra Rusiya və İran Xəzərdən sərbəst şəkildə istifadə etmişlər;

-XIX əsrin sonlarından etibarən Xəzərin Azərbaycan sahillərində xarici kapital qoyuluşu ilə neft sənayesinin inkişafında yeni dövr başladı;

- İkinci dünya müharibəsindən sonra Xəzərdə neftin cıxarılması mühüm tarixi hadisə idi;

-yenicə müstəqillik əldə etmiş Azərbaycan Respublikası dünyanın iri neft şirkətləri ilə sıx əməkdaşlıq siyasətini həyata kecirərək bütün sahələrdə inkişaf strategiyasında dönüş yaratdı. Qısa müddət ərzində bu strategiya cox ciddi nailiyyətlərə rəvac verdi;

**"Azərbaycan Respublikasının xarici siyasətində və qonşu dövlətlərlə qarşılıqlı münasibətlərində Xəzərin statusu problemi"** sərlövhəli II fəsil üç yarımfəsildən ibarətdir. Bu fəslin **"Xəzərin hüquqi və beynəlxalq hüquqi statusu"** adlanan birinci paraqrafda göstərilir ki, tədqiqat işinin əhatə etdiyi problemə üyğun olaraq dövlətlər arasında iyirmi ildən cox aparılan mübahisə Xəzər dənizinin hüquqi statusu haqqında əldə olunan sənədlərin layihəsi, rəsmi bəyanatlar və çıxışlar, habelə problem üzrə birgə sənədlərin təhlili göstərir ki, hüquqi rejim baxımından iki müxtəlif münasibət mövcuddur. Bir qrup dövlətlər belə hesab edir ki, Sovet İttifaqının dağılmasına və Xəzər sahillərində yeni müstəqil dövlətlərin yaranmasınadək Xəzər dənizi «ümumi istifadə dənizi» idi. İndi də belə istifadə olunmalıdır.

**-** araşdırmalardan məlum olur ki, coğrafiya elmində göl barədə nəinki müasir anlayışlara əsaslanan, həmçinin əvvəlki əsrlərdən irsən qalmış birmənalı olmayan mövqe vardır. Tədqiqatcı, Q.Q.Gül yazır: «Xəzər dənizi dünyada ən böyük göldür. Özünün ölçülərinə və suyunun duzlu olduğuna görə o, hələ çox qədimdən dəniz adlanmağa başlamışdır»[1]. Hüquqşünas alim R. Məmmədov yazır ki, «böyük gölləri dəniz

[1] Гюл К.К. Каспийское море: Баку. Азнефтеиздат. 1956, с.167.

hesab etməyin zəruri olması fikri əvvəllər ümumiyyətlə çox geniş yayılmışdır» [1].

- Tədqiqatçıların fikrincə "sovet beynəlxalq doktrinasında qapalı dəniz konsepsiyasının geniş qəbul edilməsi və qapalı dəniz əlamətlərinin aşkar təzahür etdiyi Qara dəniz və Baltik dənizinə bu konsepsiyanın şamil olunması dövlətlərin təhlükəsizliyi ilə bağlıdır"[2] .

Hüquqşünas alim R. Məmmədov yazır: "sovet ittifaqının faşizm üzərində qələbəsinə və dünya sosializm sistemi yaradılana qədər qapalı

dəniz konsepsiyası SSRİ-nin beynəlxalq hüquq təhlükəsizliyinə, o cümlədən dəniz istiqamətlərində də təhlükəsizliyin təmin olunmasında müsbət rol oynamışdır». Lakin, sərhəd gölü konsepsiyasının təsdiq edilməsi də dövlətlərin təhlükəsizlik və sülh mənafelərinə zidd olmazdı"[3]

Bu baxımdan, Xəzərin statusunun həllində Azərbaycan dövlətinin mövqeyini Ulu Öndər Heydər Əliyev dünyanın diqqətinə catdırdı ki, «dövlətlər arasında Xəzərin bölünməsi və onun hüquqi statusu ayrı-ayrı sahilyanı ölkələrin milli maraqlarına uyğun yox, yalnız və yalnız regionda sülhün, əmin-amanlığın, sivilizasiyanın və qarşılıqlı mehriban qonşuluğun qorunub saxlanması üçün beynəlxalq hüquq normalarının təsdiq etdiyi təcrübə əsasında bölünməlidir»[4]. İkinci yarımfəsildə problemin müzakirəsidəki geosiyasi maraqların meydana gəlmə səbəbləri, dövlətlərin mövqelərindəki milli mmaraqların reallıqlara üyğunluq dərəcəsi və mahiyyəti hadisələrin ardıcıllığı ilə izlənilmiş elmi təhlilə cəlb edilmişdir.

1994-cü il sentyabrın 24-də Rusiya Xarici İnformasiya Mərkəzi Rusiya Federasiyasının bu müqaviləni («əsrin müqaviləsi»-S.H.) tanımadığı haqqında rəsmi bəyanat verdi. Bu zaman Rusiya Xarici İşlər Naziri A.Kozırev, Baş Nazir Çernomırdinə yazdığı məktubda Azərbaycana qarşı ticarət-iqtisadi və maliyyə xarakterli ölçülərin götürülməsini tələb edirdi. Rusiyanın mövqeyini müdafiə edən ilk sahilyanı

---

[1] Мамедов Р.Ф. «Международно-правовой статус Каспийского моря как пограничного озера». Баку: 1998, № 1. с. 9-15.

[2] Левченко А. Каспий: море процветания или яблоко раздора? (Возрождение XXI век), 1999, № 17, ст. 173, 21

[3] Məmədov R.F. Xəzərin statusu. «Dirçəliş-XXI əsr» jurnalı, Bakı, 1998, №2. s.44-45.

[4] Hannes B. Azerbaijan and Qafqaz. "Rayn Pfalts. Germany. 21 october 1999, №164., p.12.

ölkə Türkmənistan idi. Hətta 1994-cü il oktyabrın 19-da İstanbulda türk dövlətləri başçılarının zirvə toplantısı zamanı Türkmənistan prezidenti Saparmurad Niyazov öz çıxışında Xəzərin statusunun müzakirə edilməsini xüsusi vurğulayaraq, Rusiyanın məsələ ilə bağlı mövqeyini dəstəklədi. Xəzərin statusu problemini sahilyanı _ ilə bağlı mövqeyini dəstəklədi. Xəzərin statusu problemini sahilyanı ölkələr qarşısında cəkişmə, mübahisə və qeyri-sabitlik obeyktinə çevirməyə çalışanlardan fərqli olaraq Azərbaycan Prezident Heydər Əliyev bütün görüşlərdə öz ölkəsinin mövqeyinin düzgünlüyunü konkret faktlarla əsaslandırırdı[1].

**"Azərbaycanın xarici siyasətində və qonşu dövlətlərlə münasibətlər sistemində Xəzərin statusu məsələsinin qoyuluşu"** adlı ikinci yarımfəsildə poblemin müzakirəsidəki geosiyasi maraqların meydana gəlmə səbəbləri, dövlətlərin mövqelərindəki milli maraqların reallıqlara üyğunluq dərəcəsi və mahiyyəti hadisələrin ardıcıllığı ilə izlənilmiş elmi təhlilə cəlb edilmişdir.

Oktyabrın 27-də Türkmənistan Respublikasının üçüncü ildönümü zamanı Aşqabadda keçirilən görüşdə Heydər Əliyev məsələnin hüquq normaları əsasında həll olunmasının vacibliyini vurğuladı [2].

Qısa müddət ərzində Rusiya, Xəzərin statusunun qeyri-müəyyən olduğunu əsas gətirərə Türkmənistanı və İranı da öz mövqeyinə qoşdu.

Nəhayət, Azərbaycan hökumətinin Xəzərin statusu ilə bağlı irəli sürdüyü konsepsiya aşağıdakı kimi müəyyənləşdirilmişdir.

-Xəzər sərhəd gölüdür.

-Xəzər orta xətt prinsipi üzrə milli sektorlara bölünməlidir.

-Xəzərin milli sektorlara bölünməsi keçmiş SSRİ-nin iş praktikasına və o zamankı (1970-ci ildə qəbul olunmuş bölgüyə əsasən) bölgüyə əsalanmaldır.

-Belə bölgü artıq mövcud olduğundan Xəzəryanı dövlətlər status müəyyənləşdirilməzdən əvvəl öz milli sektorlarında işə başlaya bilərlər. Bu mövqeyə qarşı Rusiya-İran-Türkmənistan üçlüyü isə aşağıdakı sistemi irəli sürürdülər.

-Xəzər unikal qapalı su hövzəsidir və Xəzəryanı dövlətlərin ümumi sərvətidir.

---

[1] Yusifzade Kh. The Development of the Oil and Gaz İndustry. Az. İnt. Summer. SOCAR. № 7, 1996, p.36-39.

[2] Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkmənistana rəsmi səfəri. //Azərbaycan" qəzeti , 28, oktyabr,1994-cü il,№ 184.

-Milli sektorlar əvvəlki təkliflərlə 12, hazırkı təkliflərə görə isə 45 mildən çox olmamalıdır.

Xəzərin milli sektorlara düşməyən orta hissəsində bütün geoloji

kəşfiyyat və neft-qaz hasilatı beş Xəzəryanı dövlətin ümumi iştarkı ilə həyata keçirilməlidir.

-Xəzərin statusu müəyyənləşməmiş dövlətlərin burada qazma işləri aparması düzgün deyil[1].

**"Xəzərin statusu ətrafında yaranmış fikir ayrılığı və tərəflərin mövqeyi"** sərlövhəli üçüncü yarımfəsildə Xəzərin statusu haqqında aparılan danışıqlar prosesində hər bir dövlətin müəyyənləşdirdiyi mövqeyi tədqiqatın əsas xətti kimi götürülmüş, bu istiqamətdə sahilyanı dövlətlərin ortaya qoymuş olduğu konsepsiyalar ayrı-ayrılıqda öyrəmilmiş, münasibət bildirilmişdir. Bu zaman aparılan müzakirələr göstərir ki, qarşı tərəflər beynəlxalq hüquqa əsaslanmayan, heç bir hüquqi əsası olma-yan, yalnız öz maraqlarına uyğun təkliflərlə çıxış edirdi;[2]

Odur ki, prosesin gedişi 2000-ci ilin sonuna doğru aşağıdakı fikirləri söyləməyə əsas verir.

- təəssüflər olsun ki, dövlətlər arasında uzun sürən və gərgin keçən danışıqlara baxmayaraq, sahilyanı dövlətlər 2000-ci ildə də Xəzərin statusu və ondan istifadəyə dair siyasi həll yolunu tapa bilməmişdilər.

-əgər əvvəlki illərdə Xəzərətrafı dövlətlər Xəzərin öyrənilməsi və onun ehtiyatlarından istifadə məsələlərinin müzakirəsinə xüsusi yer verirdilərsə, 2000-ci ildə dövlətlər Xəzərin statusunun həll olunmasına səbəb olacaq qəti həll variantı axtarırdılar.

- milli sektorlara bölünmə prinsipini irəli sürən Azərbaycan tərəfinin mövqeyi, qarşı tərəflərin də qəbul etdiyi variant kimi qiymətləndirilməklə yanaşı, tərəflərin məhz bu ideya ətrafında həll yolunu axtarması mümkün varianta çevrilmişdir.

- Xəzərin statusu problemi elə bir həddə çatmışdı ki, uzun illər ərzində mübahisələrin getdiyi göl və dəniz statusunun Xəzərə tətbiq edilməsi məsələsində gərginlik yaranmış, sahilyanı ölkələrin hər birini qane etməyən variantlar meydana çıxmışdır. Bunun da əsasında,

---

[1] Əhmədov M.B. Azərbaycan yeni neft erası və beynəlxalq siyasət. Bakı: Elm, 1997, s.67, 87

[2] Xəzər dənizinin mavi suları necə bulandı.//İran xəbərləri» jurnalı, Tehran, 14 fevral 1996, №1, s. 8.

bilavasitə, milli maraqlar dayanırdı. Lakin dövlətlər indi daha çox bu hövzənin istifadəsində öz aralarında qəbul olunmuş variantları tapmağa can atırdılar. Müzakirələrin bu istiqamətdə getməsi isə Xəzərə dəniz, yaxud göl statusunun şamil edilməsini getdikcə arxa plana kecirirdi. Lakin bütün danışıqlar milli sektorlara bölünmə prinsipi üzərində getməyə başlamışdı.

- Rusiya Türkmənistan və İran üçlüyünün Xəzərin statusu ilə bağlı əvvəllər tutduqları qeyri-konstruktiv mövqe tamamilə zəifləmiş, bu mövqedə daxili parçalanma əmələ gəlmişdi. Bunun mahiyyəti ondan ibarət idi ki, İran nəhayət ki, milli sektorlara bölünmə prinsipi ilə razılaşmış, lakin hər bir ölkənin 20 % payının olması fikrində israr edirdi. Bu təklif dərhal sektorial bölgü prinsipində 20 %-dən çox paya malik olan Türkmənistan və Qazaxıstan dövlətinin qəti etirazına səbəb olurdu. Bunun əsasında da qarşıdurmanın yeni mərhələsi yaranırdı. Cünki, Xəzərin bölgüsündə hər bir dövlətə eyni dərəcədə pay vermək mümkün deyildi. Buna heç Xəzərin coğrafi vəziyyəti də yol vermirdi.

- Bütün bunların nəticəsi olaraq dövlətlər arasında artıq Xəzərin statusu məsələsi Azərbaycanın təklif etdiyi milli sektorlar prinsipi əsasında hamı tərəfindən razılaşdıralacaq həll variantının tapılmasını zəruri edirdi. Yəni Xəzərin statusunu beynəlxalq hüquq normalarının tətbiqindən daha çox dövlətlər arasında ümumi razılaşdırılmış variantın qəbul edilməsini tələb edirdi.

**"Xəzərin statusu ətrafında dövlətlərarası müzakirələrin kəskin qarşıdurmadan konstruktiv mərhələyə kecməsi"** sərlövhəli dördüncü yarımfəsildə göstərilir ki, 2001-ci ilin yanvar ayının 9-da Azərbaycana rəsmi səfər etmiş Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana olan marağının artması acıq acıq özünü göstərdi. Tarixi səfərin nəticəsi olaraq hər iki dövlətin müxtəlif sahələrdə qarşılıqlı dostluq və təhlükəsizlik məsələləri üzrə mövqeləri daha yaxınlaşmış və bunlar öz əksini imzalanmış «Bakı bəyannaməsi»ndə tapmışdır [1]. Qeyd etmək lazımdır ki, səfər zamanı Rusiya Prezidenti V.Putin bir neçə illər Xəzərin bölünməsinin ciddi problemə çevrilməsini və bu sahədə irəliləyişin çox ağır getdiyinin haqlı olaraq dövlətlərin milli maraqları bağlayırdı. Lakin yeni minilliyin əvvəlində bu ölkənin problemə münasibəti qənaətbəxş hesab olunmalı idi. V.Putin

---

[1] Rusiya-Azərbaycan sənədlərinin imzalanması.//Xalq» qəzeti 10 yanvar 2001, № 4.

qeyd etmişdi ki, «biz milli maraqlarımızı nəzərə almaqla, bir-birimizi dəstəkləməliyik»[1].

Səfər zamanı imzalanmış Azərbaycan və Rusiyanın Xəzər dənizində əməkdaşlığın prinsipləri haqqında qəbul olunmuş «Birgə Bəyannamənin» dövlətlər üçün müstəsna əhəmiyyəti vurğulanır və gələcək konstruktiv dialoqlarınhəmin variant əsasında həyatakeçirilməsini dövlətlərarasında sülhün və təhlükəsizliyin mühüm amili hesab edirlər.[2]

**"Xəzərin statusu probleminin həlli beynəlxalq əhəmiyyətli məsələ kimi" sərlövhəli III fəsildə** problemin həlli istiqamətində aparılan gərgin diplomatik fəaliyyətin nəticəsi olaraq onun həllinin beynəlxalq əhəmiyyət kəsb etməsi müxtəlif aspektlərdən araşdırılır.

- Xəzər neftindən pay almış və Azərbaycanla iqtisadi əməkdaşlıq etməyə can atan ölkələrin mövqeyi regionun sabitliyi məsələsində əhəmiyyətlidir. Çünki problemin həlli təkcə Azərbaycan dövləti üçün deyil, həm də qeyd etdiyimiz kimi, dünya neft nəhənglərinin də mövqeyi üçün də vacibdir.

- Xəzərin statusu probleminin həll olunmasında regional və beynəlxalq təşkilatların rolu istisna deyil. Burada dövlətlərin Xəzər problemini həll etməkdən ötrü yaratdığı xüsusi qurumların fəaliyyəti də əhəmiyyətlidir. Təbii ki, burada Azərbaycan dövləti maraqlı tərəf kimi fəal iştirak edir. Qaldırılan məsələlər isə mütəxəssislərin müzakirəsinə cəlb olunmalıdır. Bu halda, qurumun fəaliyyəti obyektiv və əhəmiyyətli məzmun kəsb etmiş olardı.

- Azərbaycan beynəlxalq hüquqi konvensiyalarda müsbət haldır ki, bu istiqamətdəki diplomatik fəaliyyətini son illər daha da artırmaqdadır. Hesab edirik ki, istər elmi ictimaiyyət, istərsə də mütəxəssislər bu istiqamətdə çox ciddi işləməlidirlər.

Beləliklə Azərbaycan Respublikasının milli təhlükəsizlik konsepsiyasında da Xəzərlə bağlı cox vacib məqamlar öz əksini tapır və göstərilir ki,"Enerji təhlükəsizliyi siyasəti Xəzər hövzəsinin Azərbaycan Respublikasına mənsub olan sektorunda yerləşən mövcud neft və qaz yataqlarının, habelə perspektivli strukturların işlənməsi, istismarı, müasir neft-qaz özüllərinin tikintisi və quraşdırılması, əsas neft və qaz ixrac boru kəmərlərinə, terminallarına olan təhdidlərin aşkar

---

[1] Seyidov S. Azərbaycan-İran münasibətləri yeni müstəvidə. //Azərbaycan» qəzeti, 17 yanvar 2001, №16.
[2] Əliyev Heydər, Vladimir Putin; Azərbaycan Respublikası və Rusiya Federasiyasının «Bakı Bəyannaməsi». //Xalq» qəzeti, 13 yanvar 2001, № 10.

edilməsi, qiymətləndirilməsi və adekvat tədbirlərin görülməsi Azərbaycan Respublikasının milli təhlükəsizliyinin təmin edilməsinin ən mühüm fəaliyyət istiqamətlərindən biridir. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri və Cənubi Qafqaz qaz boru kəməri Xəzər dənizi ilə Qara dəniz və Aralıq dənizi arasında enerji nəqlinin, Xəzəryanı ölkələrin geostrateji və iqtisadi maraqlarını təmin edən mühüm obyektlərin təhlükəsizliyinin qorunması və bununla əlaqədar artan risklərin idarə olunması və azaldılması Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ən vacib vəzifələrindəndir. Azərbaycan neftini Türkiyənin Ceyhan limanına, qazını isə Türkiyənin Ərzurum qaz terminalına çıxaran kəmərlərin coğrafiyası müəyyən təhlükəsizlik riskləri yaradır. Azərbaycan Respublikası enerji ehtiyatlarının istehsalı və nəqli ilə bağlı yaradılan və istismar olunan infrastrukturun təbii fəlakətlərə, texnogen xarakterli fövqəladə hadisələrə və təxribatlara məruz qalma ehtimalına qarşı kompleks tədbirlər həyata keçirir. XXI əsrdə dünyada enerji daşıyıcıları ilə bağlı böhran gözlənildiyindən Azərbaycan Respublikasında alternativ enerji mənbələrindən istifadə edilməsi qərara alınmışdır"[1].

Məsələ ilə bağlı bir sıra əsərlərin müəllifi, tədqiqatcı A. Cohen yazır: "Xəzər regionunda enerji təhlükəsizliyi anlayışında enerjinin istehsalı, nəqli məsələsi bu prosesə mənfi təsir göstərə biləcək təsirlərin öyrənilməsini zəruri edir. Buna görə də Xəzəryanı ölkələr dünyanın siyasi mənzərəsinə bölgənin enerji ehtiyyatlarının qlobal gücünü nəzərə alaraq son dərəcə ehtiyyatlı yanaşma nümayiş etdirməkdədirlər. Xəzərin hüquqi vəziyyətinin müəyyənləşdirilməsində də mövcuddur"[2]. Biz hesab edirik ki, bunlar bir-biri ilə sıx bağlıdır və qəbul olumuş qərarlarda mövcud təsirlər dəqiq müəyyənləşdirilməlidir.

**Nəticədə** tədqiqatın yekunu olaraq əldə edilmiş nəzəri-praktik əhəmiyyət daşıyan elmi müddəalar ümumləşdirilmiş, tövsiyyə xarakterli təkliflər irəli sürülmüşdür.

- Aparılan tədqiqat işi göstərir ki, Azərbaycanın zəngin təbii ehtiyatları, tarixən olduğu kimi, bu gün də dövlətlər arasında qarşıdurmaya, rəqabətə səbəb olan amillərdən biridir

---

[1] Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası ( www. mediaform. az 2007. 05.34)

[2] Cohen A. "The New Great Game: Oil Politics in the Caucasus and Centr al Asia" The Herigate Foundation, January 2006. (www.academy. edu.)

- XVIII-XIX əsrlərdə artıq dəyişən siyasi vəziyyət şəraitində Xəzər daima mübarizə meydanına cevrilmiş, burada nüfüz müharibəsi davamlı xarakter almışdır

-Rusiya Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra da Xəzərin və ümumən Qafqazın strateji məkan olmasını yüksək qiymətləndirir, öz təhlükəsizliyinin mühüm faktoru kimi, xarici siyasətinin bütün imkanlarından milli maraqlarına uyğun istifadə edirdi.

- Nəticə etibarilə Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə gəlişindən sonra, həm də Xəzərin tarixən Azərbaycana aid olan hissəsinin, digər dövlətlər tərəfindən tanınması istiqamətində, eləcə də hər bir ölkənin bu hövzədə öz sektorunda təhlükəsiz fəaliyyətinin qurulmasına dair geniş diplomatik iş aparıldı, «status» məsələsinin müzakirəsində yeni mərhələ başlandı. Nəticədə isə bu proseslər Xəzərin ayrı-ayrı dövlətlər tərəfindən inhisara alınmasının qarşısını almış oldu. Rusiya, İran və Türkmənistan dövlətləri prosesin I mərhələsində iddia etdiyi inhisarçılıqdan uzaqlaşdı. Lakin qısa müddətdə də hansısa bir əsas işləyib hazırlamaq mümkün deyildi. Elə u faktor Xəzərin statusunun illərlə müzakirəsinə gətirib çıxarmışdı. Bunları təhlil etməklə biz, vahid cəbhədə birləşən Azərbaycan diplomatiyasının fəaliyyətinə geniş nəzər yetirmiş, dissertasiya boyu ümumiləşdirilmiş nəticələr çıxarmağa çalışmışıq.

- İllərlə dövlətlərarasında gedən gərgin müzakirələr Xəzərin statusuna dair güc tətbiq etməməyi, yalnız mövcud praktikaya və tarixi təcrübənyə əsaslanan qərarların qəbulunu ölkələrin qarşısında yeganə amil kimi qoydu. Biz regionun gələcək geosiyasi vəziyyətində hərtərəfli əməkdalığın müsbət nəticələrinin bilavasitə bu proseslə bağlılığı qənaətinə gəlmişik.

-Xəzəryanı dövlətlərin problemin həlli ilə bağlı dialoqu bölgə xalqlarının getdikcə sıx əməkdaşlığına şərait yaradır, problemin mahiyyətini, nəticələrini, xalqlar üçün əhəmiyyətini başa düşməyə imkan verir.

**Dissertasiya işinin əsas məzmunu müəllifin aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır.**

1.Dövlətlərarası münasibətlərdə Xəzərin statusu məsələsi. Bakı, //Elm- 2002, 176 səh.

1. Xəzərin statusunda sahilyanı dövlətlərin mövqeyinə dair. //Ekologiya, Fəlsəfə, Mədəniyyət Bakı, Elm, 1999, № 16, s 128-132.

2. Xəzərin statusunun siyasi və hüquqi əsası. //"Qanun" jurnalı , Bakı- 2000, № 1, s. 4-9

3. Azərbaycan neftinin istismarına dair beynəlxalq müqavilələr (1994-2001-ci illər). //Ekologiya, Fəlsəfə, Mədəniyyət 2000 №24, s.172-176

4.Xəzərin tarixi haqqında. Müasir elm: problemlər, perspektivlər. // Renessans jurnalı. Bakı, 2000, s.97-99.

5. Vasitəcilik missiyası: ATƏT-in Minsk qrupu bu missiyanı necə yerinə yetirir. I məqalə: //"Dircəliş" jurnalı , №53 iyul 2002. s. 111-119

6.Vasitəcilik missiyası: ATƏT-in Minsk qrupu bu missiyanı necə yerinə yetirir. II məqalə: //"Dircəliş" jurnalı, №54, sentyabr, 2002. s. 123-131

7.Dövlətlərarası münasibətlərdə Xəzərin statusu məsələsi. Bakı, //Elm- 2002, 176 səh.

8. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Avropa ölkələrinin Xəzər siyasəti. Azərbaycan Xalq Cümhuriyyəti və milli müstəqilliyin ideya-siyasi problemləri.(konfrans materialları) //Bakı- Təknur- 2003, s. 255—258.

9.Məqsədyönlü diplomatiya Azərbaycanın gələcəyi naminə // "Dircəliş XXI əsr" jurnalı 2004-cü il iyun-iyul, № 76-77. s.143-151

10.Xəzərin statusu təhlükəsizlik və qarşılıqlı anlaşma mərhələsində.//"Elmi axtarışlar" jurnalı, Bakı, Səda, XXI buraxılış. 2006. s.158-161.

11.Siyasi lider və Heydər Əliyev fenomeni. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 85-ci ildönümünə həsr edilmiş ümumrespublika elmi-praktik konfransın materiallar; // Bak,Təknur, 2008, s.122-127

12.Азербайджан в процессах международной интеграци. Москва , //Вопрос Гуманитарных Наук 2010 , №3 (47)

13. Güclü dövlət naminə (yaxud xalqın nicat yolu onun birliyindən keçir). "Ümummilli lider Heydər Əliyevin irsi və milli ideoligiyanın formalaşması məsələləri" (05 may 2010 cu il tarixdə Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutunda kecirilmiş ümumrespublika elmi-praktik konfransının materialları)//. Bakı- "Elm və Təhsil", 2010. s.183-188.

14.Qlobal əməkdaşlıqda Xəzərin statusunun həlli perspektivləri. AMEA Fəlsəfə Sosiologiya və Hüquq İnstitutunun //"Elmi əsərlər" jurnalı, №1 Bakı-2011. s.167-173.

15.Xəzəryanı ölkələrin siyasi münasibətlərində status məsələsinin ilk müzakirə formatı. //AMEA-nın Xəbərləri. Tarix, Fəlsəfə, Hüquq seriyası Bakı-Elm, 2011, №1 (166) s.135-144.

16. Xəzərin statusu Zirvə görüşlərinin müzakirəsində. //BDU-nun Xəbərləri, (Sosial-siyasi elmlər seriyası), Bakı- 2012, № 2 s.171-175

17. Статус Каспия в формате конструктивного обсуждения. //Гилея. Науковий висник. Киив-2012. № 67, (12) ст. 221-228

18. Перспективы решения проблемы статуса Кас-пийского моря с позиций прикаспийских стран. //"Межкультурные ком-муникации". Тбилиси, 2013, №21, с.172-179

**Senan Samandar oglu Hasanov**

## THE PROBLEM OF CASPIAN STATUS AMONG INTERSTATES.

## SUMMARY

In the dissertation work "The problem of Caspian status among interstates" has put forward the complex investigation of strategically important inclinations in the history of modern international relations and foreign policy of Azerbaijan. The scientific researcher has investigated the level of the Caspian status and analyzed its oil strategy in the region and in international policy.

In introduction of dissertation work was based the topicality of scientific theme and has looked through the history of Caspian Sea and the events happening around it. Here is also based the study level of the problem, scientific innovation and theoretical - practical importance.

In the first chapter of dissertation work "The occurred problems of Caspian status and modern problems" the appearance of status problem, signing of the international contracts and the straightening of struggle around this problem were the object of scientific and theoretical analyzes.

In the second chapter, "The problem of Caspian status in the foreign policy of Azerbaijan and in mutual relationship with neighbor countries" the juridical statements about Caspian Sea, international norms and principles, including the statement of problem, the discussion format, confusion of thoughts and its maintenance have broadly and comprehensively proved.

In the third chapter, "The solution of problem about the status of Caspian Sea as an international important problem" has grouped the factors being the reason of cooperation viewpoint of peace stability and states' security also come to basic conclusions.

In the conclusion has investigated the problem in a dissertation form, analyzed the international importance in solution of problem on the base of real events of the present day. At the end given concrete results and a number of recommendations on this status problems.

**Ганасов Санан Самандар оглы**

# ВОПРОС О СТАТУСЕ КАСПИЯ В МЕЖГОСУДАРСТВЕННЫХ ОТНОШЕНИЯХ

## РЕЗЮМЕ

В диссертационной работе под проведено комплексное исследование стратегически важных направлений в истории современных международных отношений и внешней политики Азербайджанской Республики а также проблемы статуса Каспийя проанализировално ролъ ее нефтяной стратегии в регионе и в международной политике.

Во введении диссертационной работы обоснована актуальность исследевания научной темы и освещени история Каспийского моря и события, происходящие вокруг него. Здесь также проанализирована степень разработанности проблемы, показаны научная новизна диссертации ее теоретическое и практическое значение.

В первой главе диссертации - «Возникновенние вопроса статуса Каспия и современные проблемы”,рассматриваъется появление проблемы статуса, подписание международных договоров и обострение борьбы вокруг этой проблемы которые стали предметом научных и теоретических анализов.

Во второй главе -“Проблема статуса Каспия во внешней политике Азербайджана и во взаимоотношениях с соседними странами” автор изучает юридическая имеющих опыт, Каспийском море, международных нормах и принципах, включая заявление проблемы, формата обсуждения, беспорядочность мнений его обслуживание широко и всесторонне доказана.

В третьей главе -“Решение проблемы статусе Каспийского моря как важный международный вопрос”сгруппированы факторы, являющиеся причиной сотрудничества с точки зрения мирной стабильности и безопасности государств, здесь также сделаны основные заклюючения.

В заключении автор приходит к выводу что Азербайджанская Республика в соответствии со своей внешнеполитической концепции по статусу Каспия, обеспечивая националъные интересы государства, проводила политику создания прочной базы для взаимовыгодного сотрудничества и добрососедства в Каспийском регионе. Добиласъ принятия важных политико- технических решении по применению к Каспию деления, основываюшегося на исторический опыт и уже имеюшуюся мировую практику.

_АКАДЕМИЯ ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ
ПРИ ПРЕЗИДЕНТЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

*На правах рукописи*

**САНАН САМАНДАР оглы ГАСАНОВ**

# ВОПРОС О СТАТУСЕ КАСПИЯ В МЕЖГОСУДАРСТВЕННЫХ ОТНОШЕНИЯХ

Специалъностъ: 59 01.01 – «Международые отношения».

## А В Т О Р Е Ф Е Р А Т

диссертации на соискание ученой степени
доктора философии по политическим наукам

**Баку - 2013**